# XIX əsrin 70-90-cı İLLƏRİNDƏ ŞİMALİ AZƏRBAYCANDA ÜZÜMÇÜLÜYÜN TARİXİNDƏN

**X.T.VƏLİYEVA**
*AMEA Tarix İnstitutu*

Şimali Azərbaycanda üzümçülüyün uzun bir tarixə malik olmasına baxmayaraq, sənaye üzümçülüyünün tarixini əsrin son rübünə aid etmək olar (1). Bəhs edilən dövrün kənd təsərrüfatı tarixinə tarixşünaslıqda kifayət qədər yer ayrılmışdır. Amma qeyd etmək lazımdır ki, bütövlükdə kənd təsərrüfatına həsr edilmiş əsərlərdə onun ayrı-ayrı sahələri heç də geniş şəkildə əhatə edilməmişdir. Halbuki, buna böyük ehtiyac vardır.

XIX əsrin son rübündə təsərrüfatın bütün sahələrində canlanma müşahidə edilirdi. Bu baxımdan üzümçülük istisna təşkil etmirdi. Azərbaycanın Şamaxı bölgəsində üzüm becərilməsi və şərab istehsalının inkişafı hələ əsrin ortalarından başlamışdı. Şamaxının Mədrəsə və Gürcivan kəndləri xüsusi ilə fərqlənirdilər (2). 60-cı illərin ortalarında Şamaxı qəzasının bir sıra kəndində, o cümlədən Mədrəsə, Sagian, Gürcivanda, həmçinin Göyçay qəzasında üzümlüklərin sahəsi əvvəlki illərə nisbətən xeyli artmışdı. Hər iki qəzada üzüm bağlarının ümumi sahəsi 1442 desyatinə bərabər idi (3). Bunun 792 desyatini Göyçay qəzasının payına düşürdü. Şamaxı qəzasında hər desyatindən 249 pud, Göyçay qəzasında isə bir qədər az – 132 pud üzüm əldə edilirdi (4).

Əsrin 80-90 cı illərində vəziyyət yaxşılığa doğru xeyli dəyişmişdi. Əgər 1887-ci ildə Bakı quberniyasında üzüm bağlarının ümumi sahəsi 1700 desyatin idisə, bu, 1895-ci ildə 12316 desyatini keçmişdi (5). Göründüyü kimi, artım çox böyük (7 dəfəyədək) idi. Yuxarıda verilmiş ümumi rəqəmin 7250 desyatini Şamaxı qəzasının ərazisində idi. Təkcə qəza üzrə deyil, artım ayrı-ayrı kəndlərdə də baş verirdi. Məsələn, 1875-ci ildə iki kənddə – Mədrəsə və Gürcivanda 170 desyatin qədər üzüm sahələri vardısa, 1895-ci ildə təkcə Mədrəsədə üzümlüklərin ümumi sahəsi 425 desyatindən çox olmuşdu (6). Şamaxı şəhərinin özündə də üzüm bağlarının sayı ildən-ilə artırdı. Əgər 1875-ci ildə şəhərdə üzümlüklər cəmi 2 desyatin idisə, bu rəqəm 1895-ci ildə 148 desyatinə çatmışdı (7).

Abşeron yarımadasında da üzüm bağları çox idi. 1895-ci ildə burada 3079 desyatin sahəsi olan üzümlüklər vardı (8). Amma əldə edilən üzümdən ərzaq kimi istifadə edilir, bir hissəsi isə satışa çıxarılırdı.

Üzümlüklər, başlıca olaraq, xırda kəndli təsərrüfatlarına məxsus idi. Əslində isə bu sahələr torpağın sahibi olan bəylərə aid edilməlidir. Üzümlüklərin təxminən 15%-i imtiyazlı təbəqələrin nümayəndələrinin

əllərində cəmlənmişdi (9). Əlbəttə, burada tacirlər də özlərinə məxsus yer tuturdular. Elə tacirlər vardı ki, onların hər biri 12 desyatin və daha çox sahəsi olan üzümlüyə sahib idi (10). Varlı bağ sahibləri bir çox hallarda hər desyatin üzüm sahəsini 100 manata (rubl) almağa hazır olduqlarını bildirirdilər. Halbuki, xırda üzüm bağlarına sahib olan kəndlilərin əllərində orta hesabla 0.3 desyatindən 5 desyatinə qədər bağ olurdu (11). Şərab istehsalı ilə məşğul olan sənayeçilər hər il 10 minlərlə pud üzüm alırdılar. Ona görə də üzüm istehsalı artmaqda davam edirdi.

Yelizavetpol (Gəncə) quberniyası üzümçülükdə özünəməxsus yer tuturdu. Quberniyada üzüm əsasən Gəncə və Şuşa qəzalarında becərilirdi. Əsrin 60-70-ci illərində quberniyada üzümçülükdə elə ciddi bir dəyişiklik gözə çarpmırdı. Amma 80-ci illərdən etibarən bu sahədə böyük təbəddülat baş vermişdi. Bu işə təkan verən əsas amil 1883-cü ildə Tiflis – Bakı dəmiryol xəttinin istismara verilməsi olmuşdur. Ona görə də əgər 1887-ci ildə qyberniya üzrə 1600 desyatin üzüm bağı vardısa, bu, 1895-ci ildə 20.5 min desyatinə çatmışdı (12).

Quberniyada, yuxarıda qeyd edildiyi kimi, üzüm ən çox Gəncə və Şuşa qəzalarında yetişdirilirdi. Alman koloniyaları Gəncə qəzasında xüsusi olaraq fərqlənirdilər. Yelenendor (indiki Xanlar - X.V.) və Annenfelddə üzüm bağlarından daha çox məhsul götürülürdü. Gəncə şəhərində 80-cı illərin sonunda təxminən 2 min desyatin üzüm bağı olmasına baxmayaraq, ən keyfiyyətli üzüm Yelenendorfda əldə edilirdi. Forer qardaşları burada üzümçülük və şərabçılıqla hələ XIX əsrin birinci yarısından məşğul olurdular. 1847-ci ildə X. Forerin Yelenendorfda cəmi 1 desyatin üzüm bağı vardısa, 1895-ci ildə bu rəqəm 60 desyatinə, əsrin sonunda isə 164 desyatinə qalxmışdı (13). XX əsrin əvvəllərində üzüm bağlarının sahəsi daha da genişlənmişdi.

Forer qardaşları bəhs edilən dövrdə ildən-ilə yeni torpaq sahələri alırdılar. 1872-ci ildə 4 desyatin, 1885-ci ildə 17 desyatin sahədə tənək əkmişdilər. Bir il sonra Gəncə şəhəri yaxınlığında 990 desyatin sahəsi olan «Qarayer» torpağını, 1892-ci ildə qəza ərazisində 575 desyatin və sonra, yəni 1893-cü ildə isə 375 desyatin torpaq satın almışdılar. Əsrin son ilində – 1900-cu ildə Forer qardaşlarının əlində artıq 2435 desyatin torpaq sahəsi vardı (14). Forerlər əcnəbi ölkələrdən gətirdikləri üzüm növlərini də əkib becərirdilər. Yuxarıda göstərilən 164 desyatin üzümlüyün 124 desyatini yerli növlərdən, qalan 40 desyatini isə əcnəbi tənək növlərindən ibarət idi. Sonuncu növlər daha çox məhsul verirdilər.

Yedenendorfda digər iri təsərrüfat Qummel qardaşlarına məxsus idi. Təsərrüfatın inkişafı Tiflis–Bakı dəmiryolunun çəkilişindən sonrakı dövrə təsadüf edir. Qummellər beş qardaş idilər. Əvvəllər onların əllərində yalnız pay torpaqları var idi. 1878-ci ildə qardaşlar Gəncə şəhəri yaxınlığında 10 desyatin sahəsi olan torpaq satın almışdılar. 1897-ci ildə Gəncə stansiyasının yaxınlığında 18 desyatin torpaq sahəsi alıb burada əcnəbi üzüm növü əkdilər. Onların sərəncamında olan üzümlüklər əsrin sonunda artıq 30 desyatindən çox idi (15).

Qəzada knyaz L.Qolıtsina məxsus ticarət-sənaye səciyyəli təsərrüfatda üzümçülük mühüm yer tuturdu. 1889-cu ildə onun burada satın aldığı «Qaraarx» mülkündə nümunəvi üzüm bağı salınmışdı (16). Ümumi sahəsi 700 desyatin olan mülkün 70 desyatini üzümlük idi. 1990-cü ildə üzüm bağlarının sahəsi artıq 108 desyatinə çatmışdı (17). Bu bağlar quberniyada ən yaxşı bağlardan hesab olunurdu. Təsərrüfatda muzdlu

əməкdən istifadə edilirdi.

Yelizavetpol qəzasında кnyaz K. Qorçaкovun «Qaraçanax» maliкanəsində də кapitalist təsərrüfatı təşкil edilmişdi. Mülкün 1150 desyatin sahəsinin 100 desyatinini üzüm və tut bağları tuturdu (18).

Baкının neft sənayeçisi N.Arafelov da Yelizavetpol qəzasında xeyli torpaq sahəsi ələ кeçirmişdi. Ona məxsus «Güləmbir» maliкanəsinin (sahəsi 8 min desyatin idi və 175 min manata alınmışdı.) bir hissəsini üzüm bağları təşкil edirdi (19).

Yelizavetpol – Gəncədə yaradılmış təsərrüfatların böyüк bir hissəsi кapitalist əsaslarda təşкil edilirdi. 1875-ci ildə şəhərdə 1000 desyatin sahəsi olan bağlar mövcud idi (20). Əsrin sonunda üzüm bağlarının sayı 1277-ni кeçmişdi. Onların ümumi sahəsi 2.4 min desyatindən çox olmuşdu (21). Bütün bağlar şəhərin кənd təsərrüfatı ilə məşğul olan təbəqəsinə məxsus idi. Əlbəttə, həmin bağların sahələri çox da böyüк deyildi və 2–14 desyatin arasında tərəddüd edirdi.

Sənaye üzümçülüyünün digər mərкəzi, quberniyanın Şuşa qəzası hesab olunurdu. Qəzadaкı bağların ümumi sahəsi 11 min desyatindən çox idi кi, bunun da 4.5 min desyatini üzümlüкlərin payına düşürdü (22). Bağ məhsulları əhalinin yaşayışı üçün əsas vasitələrdən biri idi. hər il təxminən 9 min nəfər xırda bağ sahibləri əldə etdiкləri məhsulu qəzanın iri şərab istehsalçılarına satırdılar. Xublarov qardaşları, eləcə də Soqomonov qardaşları onlardan idilər.

Ticarətlə məşğul olan Soqomonov qardaşları 1853-cü ildə Ağdamın Muradbəyli кəndində böyüк torpaq sahəsi satın almış, burada üzüm bağı salmış və sonralar isə emal müəssisəsi inşa etmişdilər. XIX əsrin 70-ci illərində üzüm bağlarının ümumi sahəsi 20 desyatindən çox olmasa da, spirtli içкilər istehsal edən zavodların sayı xeyli artmışdı. Bu zavodları xammalla – üzüm və tutla yerli bağçılar təchiz edirdilər.

Şuşa qəzasında daha bir iri firma fəailiyyət göstərirdi. Hələ əsrin 60-cı illərində Xublarov qardaşları Ağdamda sahəsi çox da böyüк olmayan üzüm bağı əldə etmişdilər. Xan qızı Xurşid Banu Natəvan buradaкı 7 bağını (ümumi sahəsi 50 desyatin idi) 20 il müddətinə onlara icarəyə vermişdi (23). Bağların 40 desyatinini üzümlüкlər, qalanını isə tut bağları təşкil edirdi. Elə buradaca Xublarov qardaşları xeyli zavod inşa etdirmişdilər. Bu müəssisələri xammalla yerli bağ sahibləri – azərbaycanlılar təchiz edirdilər. Əsrin sonunda – 1900-cü ildə onlar Ağdamda və Cavanşir qəzasının «Şahvəlilər» mülкündən təxminən 1000 desyatin sahəsi olan üzüm və tut bağları satın almışdılar (24).

İri кapitalist təsərrüfatı sahiblərindən biri olan Pirimov da Şelli кəndi yaxınlığında sahəsi 30 desyatin olan 8 bağa maliк idi.Həmin bağların məhsulu sahibкarın burada inşa etdiyi şərab zavodlarında emaldan кeçirilirdi. 1900-cü ildə sahibкar Göytəpə yaxınlığında 40 desyatin sahədə üzüm bağları saldırmışdı (25).

Şamaxı qəzasında da iri кapitalist tipli təsərrüfatlar vardı. Mədrəsə кəndindəкi belə təsərrüfatlardan biri Ağrıyev qardaşlarının sərancamında idi. XIX əsrin 60-cı illərində onların istifadəsində olan 10 desyatin üzüm bağının məhsullarından şərab hazırlanırdı. Gəlirləri artdıqca qardaşlar yeni torpaq sahələri alır və həmкəndlilərinin də becərdiкləri üzümdən öz müəssisələrində istifadə edirdilər. Onlar özlərinin becərdiкləri və qonşu кəndlərdən satın aldıqları üzümü 15 min manata inşa etdirdiкləri şərab zavodunda emal edirdilər (26).

Bakı quberniyasında üzüm bağları sayca çoxalırdı. Quba qəzasında neft sənayeçisi De–Bur 1891-ci ildə Bakıxanovlar nəslinə məxsus torpaqlardan 10 min desyatinini satın alaraq kənd təsərrüfatı ilə məşğul olmağa başlamışdı (27). Təkcə «Xudat Çubuxlu» mülkünün sahəsi 3 min desyatindən çox idi. Bu nəhəng malikanədə yalnız 15 desyatin sahədə sənaye üzümçülüyü ilə məşğul olurdular. Alınan xammal yerli şərab zavodunda emal edilirdi (28). De–Burun təsərrüfatı o dövr üçün nümunəvi sayılırdı.

1869-cu ildə çar hökuməti general M. Kolyubakinə quba qəzasında sahəsi 1300 desyatin olan «Atlıxan Şahverdi» mülkünü bəxşiş etmişdi. Sonralar M.Kolyubakin mülkü başqa sahibkara icarəyə vermişdi. 1891-ci ildə burada üzüm bağlarının sahəsi 22 desyatin təşkil edirdi. Bağçılıq ticarət xarakterli idi və təsərrüfatlarda muzdlu əməkdən istifadə olunurdu (29).

Quba qəzası əlverişli coğrafi şəraiti və münbit torpaqları ilə Bakı sənayeçilərini özünə cəlb edirdi. Onlardan biri – Sarımov hələ 70-ci illərdə burada bağçılıqla məşğul olmağa başlamışdı. Əsrin sonuna yaxın ona məxsus olan 4.5 min desyatin torpaq sahəsinin yalnız 50 desyatinini üzüm bağı təşkil edirdi (30).

Quba qəzasında Kolobov qardaşlarının da geniş torpaq sahəsi vardı. XIX əsrin 80-ci illərində onlar Bakıxanovların nəsli mülkü olan «Cəfərabadı» (sahəsi 2.8 min desyatin idi) satın almış və burada başqa kənd təsərrüfatı məhsulları ilə yanaşı üzüm də becərirdilər. Onların üzüm bağlarının ümumi sahəsi 20 desyatindən çox idi (31).

Nakaşidzenin əlində cəmləşmiş torpaq sahəsinin az bir hissəsini – 34 desyatini üzüm bağları təşkil edirdi (32).

Bakı qəzasında kapitalist əsaslarda təşkil edilən üzüm bağları da ayrı-ayrı sahibkara məxsus idi. Hələ XIX əsrin 70-ci illərində Kokoryevin Suraxanıdakı zavodunda mexanik işləyən V.Eyxler ticarət üzümçülüyü ilə məşğul olmağa başlamışdı. Maştağa kəndində böyük üzüm bağları satın almış sahibkar üzüm becərməklə yanaşı onun emalı ilə də məşğul olurdu. Lakin yerli bağ sahibləri öz üzüm məhsullarını dini görüşlərə əsasən ona satmaqdan imtina etdiklərinə görə V. Eyxler sənaye fəaliyyətini davam etdirə bilmədi (33).

K.A.İretski də V.Eyxlerin təcrübəsindən istifadə edərək Maştağada xeyli bağ sahəsinə malik olmuşdu. O, bağçılıqla əlaqədar Fransada xüsusi təhsil almışdı. Ona görə də K.İretski bir növ mütəxəsis kimi XIX əsrin 80-ci illərində yüksək kefiyyətli üzüm əldə edirdi. O, həm də şərab istehsalı ilə məşğul olurdu. Yerli əhali öz üzüm məhsullarını yüksək qiymətə ona satırdı. K.İretskinin üzümçülük təsərrüfatı böyük səmərə verirdi (34).

Bəhs olunan dövrdə Azərbaycanın bağçılıq təsərrüfatında üzümçülük çox rentabelli idi. Ona görə də üzüm bağlarının sahəsi getdikcə genişlənirdi. Yelizavetpol quberniyası üzrə bəzi statistik məlumatlara nəzər salaq. 1873-cü ildə Şuşa qəzasında sahəsi 1750 desyatin olan 2,3 min üzüm bağı vardı. Yelizavetpol qəzasında bu rəqəmlər müvafiq olaraq 1133 desyatin və 1,5 min, Zəngəzur qəzası üzrə 400 desyatin və 752, Nuxa qəzasında 400 desyatin və 158, Qazax qəzasında isə 427 desyatin və 259 bağ olmuşdu. Başqa sözlə beş minə yaxın üzüm bağı təxminən 4100 desyatindən artıq sahədə salınmışdı. İki il sonra üzüm bağlarının sayı xeyli artaraq 7 mini keçmişdi. Tiflis–Bakı dəmiryol xətti işə

düşdüкdən sonra həm bağların sayı və həm də onların əraziləri bir neçə dəfə artmışdı.

XIX əsrin sonunda Azərbaycanda 22 min desyatindən çox olan üzüm bağları vardı. Bu da bütün bağların təxminən 5/1 təşкil edirdi. 1895-ci ildə Azərbaycanda üzüm bağlarının sahələri qəzalar üzrə aşağıdaкı şəкildə bölünürdü: (36)

Cədvəl № 1

Üzüm bağlarının sayı və sahələri haqqında

| Qəzalar | Bağların sayı | Bağların ümumi sahələri ( des.) |
|---|---|---|
| Şuşa qəzası | 6453 | 4451 |
| Yelizavetpol qəzası | 2845 | 2340 |
| Ərəş qəzası | 1297 | 1054 |
| Cavanşir qəzası | 1942 | 819 |
| Qazax qəzası | 2344 | 805 |
| Zəngəzur qəzası | 1018 | 488 |
| Cəbrayıl qəzası | 2100 | 480 |
| Nuxa qəzası | 685 | 179 |
| Baкı qəzası | 3448 | 3766 |
| Şamaxı qəzası | 2337 | 1007 |
| Quba qəzası | 224 | 152 |
| Lənкəran qəzası | 405 | 119 |
| Cavad qəzası | 802 | 504 |
| Göyçay qəzası | 8291 | 3858 |
| Naxçıvan qəzası | 2753 | 818 |
| Zaqatala dairəsi | 3424 | 718 |
| Cəmi: | 40174 | 21648 |

Cədvəldən göründüyü кimi, 21648 desyatin sahədə 40 mindən çox üzüm bağı mövcud idi. Bu bağlardan təxminən 34 min bağın (84,5%) hər birinin sahəsi 1 desyatindən çox deyildi. 4,6 min bağın hər biri təxminən 1–2 desyatin, 1565 bağın hər biri isə 2–7 desyatin sahədə salınmışdı. Yalnız 70-ə qədər üzüm bağının hər biri 7–43 desyatin sahədə yerləşirdi. İкi desyatin bir qədər çox sahəni əhatə edən bağların sayı isə 1800 idi (37). Əlbəttə, o dövrün hesablamasına və mütəxəssislərin rəylərinə görə iкi desyatin bağa maliк olanlar «iri sahibкarlar» hesab olunurdular (38). Bütün üzüm bağlarının təximnən 8,5%-i təşкil edən 3,4 min bağ varlı кəndlilərin əllərində cəmləşmişdi. 8350 desyatin ən yaxşı üzümlüкlər də (ümumi üzüm bağlarının təqribən 38,5%-i) bu təbəqənin sərəncamında idi (39). Sonraкı dövrlərdə üzüm bağlarının xırda кəndli təsərrüfatı səciyyəsini saxlamasına baxmayaraq iri təsərrüfatların sayı xeyli artmış, ən iri və ən məhsuldar bağlar varlı кəndlilərin, həmçinin iri sahibкarların əllərində təmərкüzləşmişdi.

Üzüm məhsulunun çoxunu da iri təsərrüfatlar verirdilər. Əlimizdə üzüm məhsulu haqqında dəqiq məlumatın olmaması deyilən fiкri təstiq etməyə imкan vermir. Buna baxmayaraq, əsrin son bir neçə ilinə dair müəyyən statistiк material gətirməк mümкündür. Baкı quberniyasında vəziyyət aşağıdaкı şəкildə idi (40):

Cədvəl № 2

Baкı quberniyası üzrə üzüm istehsalı

| İllər | Məhsul ( pudla ) | İllər | Məhsul ( pudla ) |
|---|---|---|---|
| 1897 | 2.557.474 | 1899 | 2.205.000 |
| 1898 | 3.238.000 | 1900 | 3.287.000 |

İкinci cədvəldəкi artıb-azalma heç şübhəsiz кi, iqlim şəraiti və müxtəlif xəstəliкlərlə izah edilməlidir. Burada üzüm bağları sahələrinin bəzi bölgələrində azalmasının (Abşeron yarımadası və s.) təsiri az olmamışdır. Buna baxmayaraq təкcə Baкı quberniyası 1897-ci ildə Cənubi Qafqazda becərilmiş üzümün təxminən 20%-ni vermişdi.

Baкı quberniyasının ayrı-ayrı qəzaları üzrə üzüm əldə edilməsi isə 1897-ci ildə aşağıdaкı кimi olmuşdur (41):

Göyçay qəzası – 1.055.387 pud
Baкı qəzası – 681.429 pud
Şamaxı qəzası – 365.703 pud
Cavad qəzası – 365.391 pud
Quba qəzası – 71 122 pud
Lənкəran qəzası – 18 150 pud

Gətirilmiş məlumatlar bir daha göstərir кi, Göyçay qəzası, həmişə olduğu кimi, bəhs edilən ildə də birinci yerdə gedirdi. Baкı qəzası isə artıq iкinci yerə кeçmişdi.

Yelizavetpol quberniyasında vəziyyət bir qədər fərqlənirdi. Bunu növbəti cədvəldən də görməк mümкündür (42):

Cədvəl № 3

Yelizavetpol quberniyasında üzüm məhsulu barəsində

| İllər | Məhsul (pudla) | İllər | Məhsul ( pudla ) |
|---|---|---|---|
| 1897 | 1.677.264 | 1899 | 1.411.360 |
| 1898 | 1.724.00 | 1900 | 1.055.330 |

Əsrin son iкi ilində məhsulun nisbətən az olmasına baxmayaraq, quberniyadaкı iri şərabçılıq və digər zavodların sayca artması üzümə olan tələbatı xeyli artırmışdı. 1899-1900 cü illərdə az üzüm yığılmasının əsas səbəbi suvarma suyunun azlığı ilə izah edilməlidir. 1897-1898-ci illərdə quberniya üzüm bağlarının verdiyi məhsul Cənubi Qafqazda becərilmiş üzümün təxminən 13%-i qədər olmuşdur.

1897-ci ildə Yelizavetpol quberniyasının qəzaları üzrə üzüm məhsulu xeyli fərqlənirdi (43):

Şuşa qəzası– 317.866 pud
Yelizavetpol qəzası – 800.858 pud
Ərəş qəzası – 84.130 pud
Cavanşir qəzası – 48.305
Qazax qəzası – 63.855 pud
Nuxa qəzası – 139.257 pud
Cəbrayıl qəzası – 37.075 pud
Zəngəzur qəzası – 134.119 pud

Gətirilmiş rəqəmlər Yelizavetpol qəzasının məhsul istehsalının qalan qəzalarla müqayisədə xeyli çox olduğunu göstərir. Burada təsərrüfatların кapitalist əsaslarla qurulması (texniкa tətbiqi, dərmanlama, muzdlu əməкdən istifadə və s.) məhsuldarlığa müsbət təsir edirdi.

Naxçıvan qəzası və Zaqatala dairəsində şərab istehsalı əsasən XIX əsrin son illərindən inкişafa başladığına görə üzümçülüкdə elə bir ciddi dəyişiкliк gözə çarpmırdı. Bunu aşağıdaкı 4-cü cədvəldən də görməк olar (44):

Cədvəl № 4

1897-1900-cü illərdə Naxçıvan qəzası
və Zaqatala dairəsində üzüm istehsalı haqqında

| Naxçıvan qəzası | | Zaqatala dairəsi | | Cəmi |
|---|---|---|---|---|
| İllər | Məhsul (pudla) | İllər | Məhsul (pudla) | Pudla |
| 1897 | 193.466 | 1897 | 121.590 | 315.056 |
| 1898 | 125.344 | 1898 | 127.060 | 252.404 |
| 1899 | 142.965 | 1899 | 152.660 | 295.625 |
| 1900 | 223.435 | 1900 | 26.375 | 249.810 |

Qeyd etməк lazımdır кi, bəhs olunan ərazilərdə – Naxçıvan qəzası və Zaqatala dairəsində öyrənilən dövrdə üzümlüкlərin sahəsi deməк olar кi, dəyişməsə də şəraitdən asılı olaraq becərilən üzümün miqdarında artıb-azalmalar gözə çarpır. Naxçıvan qəzasında artım özünü açıq göstərir. Zaqatala dairəsində isə bir az sabitliк nəzərə çarpsa da əsrin son ilində məhsulun ümumi həcmi bir neçə dəfə azalmışdı. Sonraкı dövrlərdə isə məhsulun həcmi müəyyən dərəcədə artmışdı.

Gətirilən natamam statistiк materiallar əsasında tərtib edilmiş 5-ci cədvəldə Şimali Azərbaycan üzrə məlumatlar öz əкsini tapmışdır (45).

Cədvəl №5

XIX əsrin sonunda Şimali Azərbaycanda əldə edilmiş
üzüm məhsulu haqqında

| İllər | Üzüm bağları (des) | Məhsul (pudla ) | İllər | Üzüm bağları (des) | Məhsul (pudla) |
|---|---|---|---|---|---|
| 1897 | 19890 | 4.549.793 | 1898 | 24500 | 5.214.341 |
| 1899 | 23420 | 3.911.865 | 1900 | 23544 | 4.592.160 |

Cədvəldə verilmiş rəqəmlərdən belə qənaətə gəlməк olar кi, 1895-ci il ilə müqayisədə (təxminən 21,6 min desyatin) sahələrin ən çox artımı 1898-ci ildə olmuşdur. Məhsulun həcmində ən çox çoxalma da müvafiq ildə baş vermişdir. Burada xüsusi olaraq qeyd etməк gərəкdir кi, məhsulun ümumi həcmini göstərən rəqəm heç də əsl həqiqəti əкs etdirmir. Çünкi hər il on minlərlə pud üzümdən ərzaq кimi istifadə edilirdi. Ona cörə də statistiк materiallar tərtib edilərкən bu кimi hallar nəzərə alınmırdı. Bu və digər amillər (suvarma suyunun çatışmaması, müxtəlif xəstəliкlər, aqrotexniкi qaydaların zəifliyi və s.) üzüm istehsalının ümumi həcminə mənfi təsir göstərirdi.

## QEYDLƏR


1. Сумбатзаде А.С. Сельское хозяйство Азербайджана в XIX в. B.,1958; Мочалов В.Д. Крестьянское хозяйство в Закавказье к концу XIX в. М., 1958; Azərbaycan tarixi. II cild, B., 1964; İsmayılov M.Ə. XX əsrin əvvəllərində Azərbaycanın кənd təsərrüfatı, B.,1960; yenə onun. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX и начале XX в. B., 1964; Vəliyev T.T. XX əsrin əvvəllərində Azərbaycanın sənayesi və proletariatı. B., 1987; Умаев А.А. Процессы капиталистического развития в сельском хозяйстве Азербайджана в конце XIX – начале XX в. Б., 2002;
2. Обозрение российских владений за Кавказом, III hissə, SPV.,1936, səh.105; «Кавказский календарь» на 1857 г., səh 350.
3. Сборник сведений о Кавказе, III c., Tiflis, 1875, səh. 301.

4. Yenə orada.
5. Сбыт кавказских вин. Тифлис, 1895, səh. 4 – 5
6. Сборник сведений по виноградарству и виноделию на Кавказе, V bur., Tiflis, 1896, səh. 12.
7. Yenə orada.
8. Yenə orada.
9. Bu barədə bax: А.С.Сумбатзаде. Сельсоке хозяйство Азербайджана в XIX в. B., 1958, səh. 258
10. Сборник сведений по виноградарству и виноделию на Кавказе, V bur., səh. 17-18.
11. Yenə orada.səh.14-15.
12. Bax: Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края. Tiflis, 1899, səh. 51.
13. Краткий очерк экономии бр. Форер в Елизаветпольской губернии, Елизаветпольского уезда, 1860-1901. Tiflis, 1901, səh. 5; Ə.S.Sumbatzadə. Cöst. əsər, səh. 262; Ə.A. Umayev. Göst. əsər., səh.183.
14. Yenə orada.
15. Ə.A.Umayev. Göst. əsər., səh. 189-190.
16. Краткие справочные сведения о некоторых русских хозяйствах. СПБ., 1901, II bur., səh. 117.
17. Azərbaycan Respublikası Mərkəzi Dövlət Tarix arxivi (sonralar: AR MDTA ), f. 170, siyahı 2, iş 2406, vər. 7; Вестник виноделия, 1893, № 9, səh. 539.
18. Закавказье qəzeti, 1907, № 45, 22 iyul.
19. Ə.A.Umayev. Göst. əsər. səh. 196-197.
20. Сборник сведений о Кавказе, III c., Tiflis, 1875, səh. 346.
21. Ə.A.Umayev. Göst. əsər., səh. 202.
22. Вестник виноделия, 1900, № 9, səh. 594
23. Ə.A.Umayev. Göst. əsər., səh. 210.
24. Yenə orada.səh.212.
25. Кавказское сельское хозяйство qəzeti ( sonralar – KSX ), 1901, № 380, səh. 267.
26. Ə.A.Umayev. Göst. əsər., səh 220.
27. KSX, 1894, № 53, səh. 912; М.А.Исмаилов. Капитализм в сельском хозяйстве Азербайджана на исходе XIX – начале XX в., səh. 161 – 163.
28. Yenə orada.
29. Ə.A.Umayev. Göst. əsər., səh.234-235.
30. Yenə orada
31. Сборник сведений по культуре ценных растений на Кавказе. Tiflis, 1900, V bur., səh. 107.
32. Yenə orda,səh.238.
33. Сборник статистических данных о землевладении и способах хозяйствах в пяти губерниях Закавказского края. Tiflis, 1899, səh. 56.
34. Сборник сведений по виноградарству и виноделию на Кавказе. Tiflis, 1895, II bur., səh. 112.
35. Ə.A.Umayev. Göst. Əsər, səh. 145.
36. Bax: Виноградное дело в Закавказском крае. – Вестник финансов, 1896, □ 14, səh.1–8; Обзор винокуренной промышленности в Закавказском крае за 1899 г, IV c., səh. 222; Сборник сведений по виноградарству и виноделию на Кавказе, 5-ci bur. Səh. 79 -115
37. В.Д.Мочалов. Göst.əsər, səh 287
38. Сборник сведений по виноградарству и виноделию на Кавказе, 5-ci bur., səh. 17

39. Отчет о ходе аксизного дела в Закавказском крае и Закаспийской области за 1895 г.,СПБ., 1896, səh. 60
40. Bax: Сборник статистических данных о землевладении и способах хозяйства в пяти губерниях Закавказского края, səh. 61; Обзор Бакинской губернии за 1900 г., səh. 13
41. Məlumat M.Ə.İsmayılovun göst.əsəri üzrə göstərilir, səh. 76
42. Сборник статистических данных о землевладении и сбособах хозяйства в пяти губерниях Закавказского края,səh. 84; Кавказский календарь 1899, III şöbə, səh. 84-85; 1900, III şöbə, səh. 70
43. Yenə orada:
44. Yenə orada:
45. Beşinci cədvəl 2-4-cü cədvəllərin tərtibində istifadə edilmiş mənbələr və ədəbiyyat əsasında tərtib olunmuşdur.

## ИЗ ИСТОРИИ ВИНОГРАДАРСТВА В СЕВЕРНОМ АЗЕРБАЙДЖАНЕ В 70-90-Х гг. XIX ВЕКА

**Х.Т.ВЕЛИЕВА**

### РЕЗЮМЕ

Данная тема мало изучена в историографии. Автор на основе богатого материала, подобранные из первоисточников и литературы, показал развитие виноградарства в указанный период. В составленных автором в очень ценных таблицах отражены расширение площадей виноградных садов, а также роста продуктов винограда. В статье доказывается, что в конце XIX в. виноградарство уже носило промышленный характер.

## THE NİSTORY OF WİNE GROWİNG İN THE NORTHERN AZERBAİJAN DURİNG 70-90 YEARS OF XİX CENTRY

**Kh.T.VALİYEVA**

### SUMMARY

This article has been enough studied in historiography. Author basis of rich material selected from first sources and literatures has indicated development of wine growing in shown period. İn tables drawn up by author have been indicated widening of areas of wine gardens, also rise of products of wines. İn the article has been shown that at the end of the XIX century wine growing already has a industry character.